# "Qadınlarımızın 99 faizi bir-birinə oxşayır"

## *Haqqımı tələb edəndə adımı davakar qoyurlar*



**Müsahibimiz Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Dram teatrı və kino aktyoru kafedrasının müdiri, teatr və kino aktrisası Əməkdar artist Gülşad Baxşıyevadır.**

**Emin Əliyev: Azərbaycan kinosu və teatrı: sizcə bu gün hansının vəziyyəti daha ürəkaçandır?**

**Gülşad Baxşıyeva:** Gəlin, məsələyə birtərəfli baxmayaq. Desəm teatr yoxdur, yalan danışaram. Vaxtım olduqca Azdramanın tamaşalarına gedirəm. Gedirəm ki, görüm, illərdir tanıdığım aktyorlar necə oynayacaqlar? Yeni bir fikir, yeni bir söz deyəcəklər, ya yox? Məsələn, "Almaz" tamaşasına baxdım. İndi yeni quruluşda, yeni üslubda hazırlanıb. Nurəddin Mehdixanlının oyununa heyran qaldım. Əsl Hacı Əhməd. Amma tərəf müqabilləri... Onlar oynadılar, Nurəddin Mehdixanlı isə yaratdı. Kino da eynilə belədir. Demək olmaz ki, proses getmir. Proses gedir, amma çox ləng... Film çəkənin də, tamaşa quranın da yaxşı imkanları olmalıdır. Kozintsevin "rejissor kapitalist olmalıdır" fikrini əvvəllər başa düşmürdüm, amma indi onu anlayıram. Mənim maddi imkanım olsaydı, tələbələrimdən ibarət gözəl bir truppa yaradardım. Amma məndə bu imkan yoxdur. Gəlin, heç nəyin üstündən xətt çəkməyək, çünki teatrda da, kinoda da cücərtilər var. Sualınızın konkret cavabına gələndə, yenə də deyirəm, bu, yaradıcılıq prosesidir, zəif işlər də olur, güclü işlər də. Bəzən alınır, bəzən alınmır. Ona görə də "yaxşı heç nə yoxdur" demək olmaz. Sadəcə, baxışlar dəyişməlidir, həm teatra, həm kinoya. Bu işin başında duranlar, ilk növbədə, bu sənəti sevməlidir. Əfsuslar olsun ki, sevmirlər, bu, kinoda daha qabarıq görünür.

**K.Ə-C.: Tarkovskiyə görə, sənətin və sənətçinin məqsədi insanı ölümə hazırlamaqdır. Bəs, sizə görə?**

**G.B.:** Belə deməzdim. Mənim üçün sənət, yaratdığını göstərməkdir. Teatr yerdən bir metr hündürlükdə olan bir sənətdir, biz çıxırıq o hündürlüyə - səhnəyə və tamaşaçını aldadırıq. Bəs, necə aldadırıq? Aldada bilirikmi? Bax, budur məsələ. Yüzlərlə peşə növü var. Bizim fərqimiz nədədir? Biz səhnəyə ruha, beyinlərə təsir etmkçün çıxırıq. Uşaq vaxtı Gənc Tamaşaçılar Teatrında "Əlvida Hindistan" və "Romeo və Cülyetta" tamaşalarına baxmışdım, bu tamaşalardan sonra taleyimi səhnə ilə bağlamaq qərarına gəldim. Hələ məktəb vaxtı o səhnəyə çıxmaq istəyirdim, istəyirdim hamı məni görsün. Tarkovski ilə durub dava eləmək fikrim yoxdur, onsuz da hamı bilir ki, dünya ölümlüdür.

**E.Ə.: Adınız çəkiləndə daim yanınızda Hüseynağa Atakişiyevin də adı çəkilir. Sizsə bu suallardan heç vaxt qaçmamısınız. Yaşadığınız tale ilə fəxr edirsiniz?**

**G.B.:** Oğlum, yaşadığın tale ilə fəxr eləmək olmaz, bu, mənə verilən taledir, qismətdir. Qaldı ki, Hüseynağa Atakişiyevə, biz Mehdi Məmmədovun kursunda bir yerdə oxumuşuq, bir yerdə işləmişik, sonra da tale elə gətirib ki, ailə qurmuşuq. 19 il həyat yoldaşım olub, uşaqlarımın atasıdır. O, hələ də bizdədir, bizim evimizdədir. Nəvələrimə baxıram və fikirləşirəm ki, indi onu necə unudasan?! Altı nəvədir, altısı da ona bənzəyir. Hərəsində bir cizgi, hərəsində bir naxış var Hüseynağadan. Bax, bunların içində Hüseynağadan hara qaçmaq olar?! Heç onu unutmaq fikrim də yoxdur. Mən həmişə pis şeyləri düşünüb kədərlənirdim. Oğlumun 14 yaşı var idi, gəldi yanıma və soruşdu ki, sizin heç yaxşı günləriniz olmayıb? O sözdən sonra valın üzü dəyişdi, indiyə kimi ancaq yaxşı xatirələrimi xatırlayıram.



**K.Ə-C: Şəkidə keçən illər Hüseynağa Atakişiyev üçün həm yaradıcılıq, həm də ailə həyatı baxımından ən uğurlu dövr olub. Amma Aydın Talıbzadə yazır ki, Hüseynağa Atakişiyev Şəki teatrındakı günlərini xatırlamağı sevməzdi.**

**G.B.:** Hüseynağa, ümumiyyətlə, xatirə danışmağı sevməzdi. Mən bilmirəm səbəbini, bəlkə, Aydın Talıbzadəyə şəxsən deyib. Hüseynağanın yaxın dostları Aydın Əzimov, Cavanşir Quliyev həmişə deyirdilər ki, onun ən yaxşı günləri Gülşadla keçən günləri idi. Moskvadan tökülüşüb gəlirdilər, məxsusi Hüseynağanın tamaşasına baxmağa. Yaradıcılığının da zirvəsini mənimlə birgə yaşayıb. Dostları bizə tez-tez gəlirdilər. Bir dəfə Aydın Əzimov dedi ki, buna bax e, Gülşad kimi aktrisanı səhnədən ayırıb salıb mətbəxə ki, buna küftə-bozbaş bişirsin. Bu sözdə böyük həqiqət var idi. Bəlkə də, son dövrlər utanıb Şəki barəsində danışmağa, amma Şəkini heç vaxt unuda bilməz, çünki Şəkiyə çox borcludur, Şəkidə ona şans verildi - bu səhnə, bu truppa, buyur, yarat. O da yaratdı. Bakıda bunu edə bilməyəcəkdi.

**K.Ə-C.: Bəs, niyə Şəki teatrından qayıtdınız Bakıya?**

**G.B.:** Çünki onu Azdramaya dəvət etdilər 1985-ci ildə.

**K.Ə-C.: Öz zəhmətinizlə qurub yaratdığınız teatrı qoyub şöhrət dalınca Bakıya gəldiniz...**

**G.B.:** Mən sizə deyim ki, il yarım Şəkidə tək qaldım. Dedim, getmirəm Bakıya. Dedi, mənim uşaqlarım Bakıda oxumalıdır. Dedim, sənin uşaqların bakılı deyil ki, sənin uşaqların şəkilidir, yazılıb - doğum yeri Şəki. Bunun üstündə söz-söhbət yarandı. Nəhayət, Bakıya köçməli olduq.

**K.Ə-C.: Sizdən sonra Şəki teatrının da uğurları sona yetdi...**

**G.B.:** Əslinə baxanda, elə oldu. Çünki Cahangir Novruzov orada bir neçə il işlədi, sonra o da çıxıb getdi Türkiyəyə. Sonra Mərdan Feyzullayev bir az işlədi, çıxdı Moskvaya getdi. Gül hər zaman ətir saça bilməz axı, yavaş-yavaş açılır, sonra ətrini hər yana saçır və yavaş-yavaş solur. Şəki teatrı da elə oldu.

**K.Ə-C.: Şəki Teatrında böyük uğur da qazandınız. Şəki teatrı misli görünməmiş bir şöhrət qazandı SSRİ-də.**

**G.B.:** Bəli, Bakı da şoka düşmüşdü.

**K.Ə-C.: Şəki teatrının tamaşası SSRİ üzrə mövsümün ən yaxşı tamaşası seçildi. Hüseynağa Atakişiyevin tamaşaları mötəbər festivalların birinci mükafatını Şəkiyə gətirdi və s. Və o uğuru, böyük zəhmətin nəticəsini arxada qoyub, birdən-birə şöhrət dalınca Bakıya gəldi. Bakıda da həm yaradıcılığı, həm də şəxsi həyatı alt-üst oldu. Bəlkə, bu, taleyin bir cəzası idi?**

**G.B.:** Əlbəttə... Bu barədə onunla söhbətimiz də oldu. Mən ona dedim ki, bu teatr sənin övladındır, onu sən doğdun, böyütdün və indi atıb gedirsən, sənin axırın yoxdur, sən öz övladını məhv eləyirsən. Məgər, o şanşöhrəti Şəkidə qazanmamışdı?! Bakının üzərindən keçib Moskvadan Şəkiyə gəlirdilər tamaşalara baxmaq üçün. Əgər sənə şöhrət lazım idisə, bu elə ən böyük şöhrət idi. Yox, o daha böyüyünü istəyirdi. Ona görə Azdramaya gəldi. Burada isə ona imkan vermədilər. Çünki xarakterində yaltaqlıq yox idi, heç kimin qarşısında əyilməzdi. Ona görə də rəhbərliklə konflikt başladı, o da hər şeyi qoyub getdi və Mehdi Məmmədovun bir vaxtlar yaratmaq istədiyi Gənclər Teatrını yaratdı. Onun bir xasiyyəti var idi, azad olmaq istəyirdi. Bu azadlıq istəyi elə onun axırına çıxdı.

**E.Ə.: Vaqif Mustafayevin sevimli aktrisalarındansınız. Sizi filmlərində, bir qayda olaraq, bədbin qadın obrazında təqdim edir. Özünüz haqda bu təsəvvürü istəyərək yaratmısınız?**

**G.B.:** Qətiyyən. Hansında, məsələn?

**E.Ə.: "Hər şey yaxşılığa doğru", "Yoxlama".**

**G.B.:** "Hər şey yaxşılığa doğru"da bədbəxt deyil ki, düzdür, oğlu ölüb, amma o yenə də hökmranlığını qoruyur.

**E.Ə.: Hər halda xoşbəxt də deyil...**

**K.Ə-C.: Ramiz Əzizbəylinin filmlərində olsun...**

**G.B.:** Hə, Sara, Nisə... İndi mən nə edim ki, rejissorlar məni belə görmək istəyir. Sadəcə, çox üzüyola aktrisayam. Rejissor hansı vəziyyəti istəyirsə, onu yaradıram. Qaldı ki, bədbin məsələsinə, həyatımın müəyyən mərhələsində bədbin olmuşam. O da qarşılaşdığım suallara cavab tapa bilməmişəm deyə. Ola bilsin, ailədən məni bu suallara hazırlamayıblar. Sonra başa düşmüşəm ki, mənim başıma gələnlər çoxunun başına gəlib, sən demə, bu, heç faciə deyilmiş. Bəlkə də obrazlarım oxşar taleli insanlardır. Amma gəlin, bunu da etiraf edək ki, qadınlarımızın 99 faizi bir-birinə oxşayır. Gənc qızlar da hamısı çalışır zahirən bir-birinə oxşasın. Kinoda, bəlkə də, dediyiniz kimi, oxşar obrazları veriblər mənə, amma mən teatrda çox fərqli xarakterik obrazlar yaratmışam. "Teymurləng", "Romeo və Cülyetta", "Həyatın dibində" tamaşalarında və s. Teatr mənim üçün daha rəngarəng olub. Amma kinoda, deməzdim, mənim rolum üzərində qurulan film çəkilib. Gəlin, etiraf edək, Azərbaycanda hələ elə bir ssenarist yoxdur ki, bir qadının üzərində qurulmuş ssenari yazsın, yaxud rejissor elə bir film çəksin. Xaricdə var, bizdə isə yoxdur.

**E.Ə.: Bəlkə, bizim qadınların baş rolluq yaşantıları olmayıb?**

**G.B.:** Mən həyatımı bir rejissora danışdım bir dəfə, heyrətdən ağzı açıq qalmışdı. Dedim, oğlum, bax, sizə ssenari verdim, bacarırsınız çəkin bunu. Niyə yoxdur elə qadınlarımız?! Var, sadəcə, kimə lazımdır, axı, hamısı kassa filmi çəkmək istəyir ki, pul qazansın. Niyə Türkiyədə çəkilir belə filmlər - həyatın o üzünü də göstərirlər, bu üzünü də.

**K.Ə-C.: Belə bir deyim var, aktyor taleyi ilə qumar oynayır. Ya həyatını uduzur, ya da... Gülşad Baxşıyeva uduzmuş qadındır, yoxsa uduzmuş aktrisa?**

**G.B.:** Biz qazandığımız yerdə həmişə uduzuruq, uduzmasaq, qazana bilmərik. Həyatın qanunudur, gərək hansısa məqamda uduzasan ki, sonra qazanasan.

**K.Ə-C.: Udduqlarınız uduzduqlarınıza dəyərmi?**

**G.B.:** Qızım, inan ki, mənim yaşıma çatanda sən o sualın cavabını indi mənim verdiyim kimi verəcəksən. Bəlkə, həyatın elə bir məqamı olub, fikirləşmişəm ki, həyatımı uduzmuşam, amma bu sözü demək, mənə elə gəlir ki, Allaha qarşı çıxmaqdır. Hərdən sual verirlər ki, Gülşad xanım, siz niyə hələ də Xalq artisti adını almamısız. Məsələn, elə aktrisa var ki, onun hər şeyi var - adı da, evi də, maşını da, teatrda işi də... amma gəlin, onun qazandıqları ilə mənim qazandıqlarımı bir tərəziyə qoyaq.

*(Davamı səhifə 11-də)*

# "Qadınlarımızın 99 faizi bir-birinə oxşayır"

## *Haqqımı tələb edəndə adımı davakar qoyurlar*

***(Əvvəli səhifə 10-da)***

Məndə olan onda varmı? Yox. Deməli, mən udmuşam.

**K.Ə-C.: Qadın kimi?**

**G.B.:** Bəli... Mən o qadınlardan olmamışam ki, evdə oturum, hər şey hazır gəlsin. Xeyr, evin bütün təsərrüfat işlərinin hamısını öz üzərimə götürmüşəm. Hüseynağa yetim oğlan olub, yetimçilikdə çəkdiyi əziyyətləri evlilik həyatında unutsun istəmişəm və onun bütün yükünü öz üzərimə götürmüşəm.

Bu, mənim ən böyük səhvim olub, çünki ailədə kişinin öz yükü olmalıdır, qadının öz. Bax, bu məqamda, ola bilsin, dırnaqarası "uduzmuşam". Qaldı ki, aktrisa kimi, mənə elə gəlir ki, aktyor səhnədən üzüsulu getməlidir. Mən üzüsuluykən getmişəm. Gərək "yaşın çatıb, ərizəni yaz, get" deyilməsini gözləyəydim?! Gənc Tamaşaçılar Teatrında üç il işlədim. Orada maraqlı rollar yaratdım, sonra müəyyən səbəblərdən müqavilə bağlamadılar. Ondan qabaq Azdramada da üç il işlədim, orada da məni "təxirə saldılar", haqsızlıqlardan bezdim, hər şeyə tüpürüb getdim.

**K.Ə-C.: Teatrdan küsüb getdiniz...**

**G.B.:** Hə... incidim, sındım, hər yerim sındı. Beləcə, meylimi saldım pedaqoji işə, filmlərə çağırırlar, vaxtaşırı dəvətlər alıram, xarakterik rollara çəkilirəm, başımı qatıram, vəssalam. Uduzmaq məsələsi var e, bu həyatda əlimizdə nə varsa, onsuz da hamısı alınır. Əvvəl verir, sonra bir-bir alır. Ona görə də, başımıza gələn hər şeyi şükranlıqla qarşılamaq lazımdır. Mən udanlardanam!

**E.Ə.: Gülşad Baxşıyeva üçün aktyor olmağın düsturu varmı?**

**G.B.:** Aktyor olmağın bir düsturu var: gərək bu sənəti dəlicəsinə sevəsən, divanəsi olasan, aşiqi olasan, üstəgəl istedad... vəssalam, düstur budur!

**K.Ə-C.: Şərq düşüncəsində şair sözü təkcə şeir yazan kimi yox, sənətkar anlamında qavranılır. Şərq şairi də deyir, "Aldanma ki, şair sözü əlbəttə yalandır". Bu mənada, yaxşı aktyor elə yaxşı yalan danışmağı bacarandır. Bizsə Gülşad Baxışyevanı həmişə doğrunu deyən biri kimi tanımışıq. Bu paradoksu necə izah edə bilərsiniz?**

**G.B.:** Bu həyat başdan ayağa oyundur, hamı oynayır - aktyor olan da, olmayan da... Amma mənə şans verilib ki, səhnədə oynayım. Ona görə də, həyatda oynamaq maraqsızdır. Sizin sualınıza cavab olaraq onu deyim ki, mən həyatda haqqı danışa bilməsəm, səhnədə də onu oynaya bilmərəm. Bilirsiz, bu insanlar niyə həyatda özləri kimi olmurlar? Çünki onlara səhnədə oynamaq üçün şans verilməyib.

**E.Ə.: 10 il əvvəlki İncəsənət Universiteti ilə indiki arasında hansı fərqi görürsüz?**

**G.B.:** Texniki baxımdan çox şey dəyişib, bina təmir olunub, gözəlləşib və s. Amma baza yoxdur. Baza nədir? Tamaşa oynamaq üçün hələ də ideal səhnələrimiz, işıqlarımız, kulisimiz, rekvizitimiz yoxdur. Bu, indinin problemi deyil, hələ o zaman Malakan bağındakı köhnə İncəsənət Universitetində də bazamız yox idi. Universitetdə çoxlu səhnələr olmalıdır. Məsələn, səhnə danışığı dərsləri otaqda yox, səhnədə keçilməlidir. Otaqda akustika var, müəllim-tələbə danışır, elə bilir səsi gözəldir. Olmaz, balaca dar otaqda 9 nəfər oturub səhnə danışığı dərsi keçmək doğru deyil. Səhnə danışığı səhnədə olmalıdır, səhnədə qurulmalıdır səs. O ki qaldı dərs proqramlarına, tədris metodikalarına, deyə bilərəm ki, inkişaf var. Müəllimlər öz üzərində işləyir. Proqress böyükdür. Mən kosmetik proqressdən danışmıram ha, mahiyyət baxımından deyirəm. Qaldı ki, tələbələrin dərslərə yanaşmaları, əvvəllər tələbələr yanğı ilə gəlirdilər dərslərə, indi isə sadəcə aktyor olmaq üçün. Ona görə, siz bayaq sual verəndə ki, aktyorluğun formulası varmı, mən dedim ki, sənətin fədaisi olmaq lazımdır. Həyat da belə qurulub - mən sənə aşiq olmasam, sən məni sevə bilərsən?!



**E.Ə.: Müsahibələrinizin birində "Bu şəhərdə"nin adını çəkirsiz, onların komediyasına güldüyünüzü deyirsiz. Bəs, Vaqif Mustafayevin qroteski ilə Rafael-Coşqun bayağılığını bir-birindən necə ayırırsınız?**

**G.B.:** Mən onların işlərinə baxanda onların aktyor kimi əziyyətlərini qiymətləndirirəm. Bir səhnəni oynayırlar, səhnə bitəndən sonra kulisə gedirlər və 5 dəqiqə çəkmir ki, yenidən başqa bir formada səhnəyə qayıdırlar. Mən onların sürətinə, texnikasına təəccüblənirəm. Onlar bunu necə bacarır, necə dəyişə bilirlər?! Axı, dəyişmək təkcə paltarla deyil. Bir də onların məqsədi qrotesk deyil, sadəcə yumordur. Hamı ora gülmək üçün gedir, həmçinin mən də gedirəm ki, gülüm, həm də görüm ki, bu dəfə nə edəcəklər, hansı yenilik olacaq, tükənməyiblər? Gəlib görürəm, yox, hələ tükənməyiblər, hələ də davam edirlər. Və onların alternativi yoxdur. Varmı, ikinci belə truppa?



**K.Ə-C.: Planeta parni iz Baku.**

**G.B.:** Yox, onlar qrotesk yolunu tutsa da, aktyor deyillər, axı. Rafaellə Coşqun aktyordur, mən onlarla birgə Gənclər Teatrında çalışmışam. Açığını deyim, onların elədiyini "Parni iz Baku" edə bilməz. Mən hələ görməmişəm, "Parni iz Baku"da çıxıb hansısa bir obrazı, bir xarakteri təqdim eləsinlər. "Bu şəhərdə" təqdim edir axı. Mən aktrisayam, yaxşı bilirəm, bir obrazdan çıxıb başqa bir obraza köklənmək çox çətin məsələdir.

**K.Ə-C.: Amma razısınız ki, onlar da sənəti kommersiyaya çeviriblər.**

**G.B.:** Bəs, nə etməlidir, acından ölməlidir aktyor?

**K.Ə-C.: Bəs, bayaq kinonun kommersiyaya çevrilməsini qınayırdınız...**

**G.B.:** Yox, kinonun kommersiyaya çevrilməsini qınamadım, kommersiyaya çevrilmiş kinoda aktyora pul çatmamasını qınadım. Kinoda aktyora pul verən yoxdur. Kommersiya filmini çəkənlər ancaq özləri qazanır, aktyoru düşünmürlər. İndi üç nəfər birləşib bir teatr yaradıb, həm bir aktyor kimi öz qurdlarını öldürürlər, həm də pul qazanırlar. Bunun nəyi pisdir?! Özü də fikir verirəm, yavaş-yavaş müəyyən tamaşalardan obrazlar yaradırlar. Rusiyada bu tip 10-15 teatr var. Başqa teatrlarımız kimi "Bu şəhərdə" məcburi bilet satmır.

**K.Ə-C.: Birmənalı olaraq, hamı Gülşad Baxşıyevanı güclü aktrisa kimi görür, bilir və tanıyır. Amma heç kim onunla işləmək istəmir. Niyə?**

**G.B.:** Kim, mən? Heç özümün də teatrda oynamaq fikrim yoxdur. Yaradıcılıq bioqrafiyamda olan rolları bəlkə də heç bir aktrisa oynamayıb. Bir-birindən fərqli, xarakterik rollar. Mən 26-27 yaşımda 80 yaşlı qadınları oynamışam. Mən oynadığımı oynamışam. İndi yol gənclərindir.

**K.Ə-C.: Teatrlardan getmə səbəbiniz nə olub?**

**G.B.:** Hər teatrdan getməyin səbəbi var, təbii. Getmək lazım olub, getmişəm...

**K.Ə-C.: Sizi davakar kimi tanıyırlar.**

**G.B.:** Baxmayaraq ki, məni davakar kimi tanıyırlar, amma mən davakar deyiləm. Haqqımı tələb eləyəndə adımı davakar qoyurlar. Bilirsiniz niyə? Mən istəmirəm o gülü dərim, mən istəyirəm o gülü dərib mənə versinlər. Teatrdan gedəndə də dedim, filankəs müəllim, mən gələndə yadınızdadır, məni necə qarşıladınız? Gül-çiçəklə... bax, mən həmən o Gülşadam. Elə şeylər var ki, açıb demək olmur. Nə isə, mən özümə dedim, Gülşad, bəsdir, özünü bu çirkabdan qurtar. Qayıt, universitetə, işinlə məşğul ol. Elə də elədim. Seriallara dəvət eləyirlər. Amma bilirsiz, niyə çəkilmirəm? Çünki aktyora hörmət qoymurlar. Aktyorların pulu ilə 250 minlik maşın sürürlər, arvadları 5 ulduzlu otellərdə dincəlir. Hamısı nəyin hesabına? Aktyorların pulunun. Düzdür, elə aktrisalar var ki, gününə min manat verirlər, amma mənə vermirlər. Səsimi çıxaranda da deyirlər, davakardır. Mən istəmirəm o pulun içində mənim də payım olsun.

**E.Ə.: Sizcə, bu gün teatr nələrdən arınmalıdır, imtina etməlidir?**

**G.B.:** Hər bir rejissorun öz yozumu, öz görüşü olur. Mən ona diqtə edə bilmərəm ki, nələrdənsə imtina elə. Biz onu dəyişə bilmərik. Sadəcə, hər bir tamaşada proses düzgün qurulmalıdır. Münasibətlər düzgün deyil. Bizim rejissorlarda aktyoru sevmək yoxdur. Bizdə rejissorlar aktyorlara aşağı sort insan kimi baxırlar, aktyoru sevmirlər. Baxıram ruslara, ya türklərə. Filmdən görünür rejissorun öz aktyorunu necə sevdiyi... Yanaşma dəyişməlidir. Minnətlə tamaşa qurmazlar, oynamazlar. Tamaşaya baxıram, rejissorun aktyora, aktyorun tamaşaçıya minnət qoyması necə də açıq görünür. Teatr bu münasibətdən təmizlənməlidir.

**K.Ə-C.: Bütün yollar bizi bir yola - tanrı yoluna aparır. Tanrı yoluna aparan hansı yollardan keçmisiniz?**

**G.B.:** Çalışıram keçim. Hamısını keçə bilməmişəm, təbii. Çalışıram ki, Allahın buyurduğu kimi, kimsəyə pislik etmədən yaşayım. Çünki bizim elədiklərimizin nəticəsini sonra övladlarımız çəkir. Siz dediniz yollar çoxdur, tanrının bizə bəxş elədiyi bir yol var - haqq yolu. Başqa yol yoxdur. Mən də çalışıram, o yolun yolçusu olum.

**K.Ə-C.: Bu gün qarşımızda oturan Gülşad Baxşıyeva kimin əsəridir - taleyin, zamanın, yoxsa özünün?**

**G.B.:** Allah-təalanın... Məgər, biz özbaşınayıq? Hər şey proqramlaşdırılıb. Hər şey qabaqcadan düzülüb-qoşulub. "Ay, sən gərək belə eləyəydin", "gərək, sən mübariz olaydın" - deyimi yalandır. Təsadüf yoxdur, nə olursa, olmalı idi ki, oldu. Bu gün qarşınızda hansı Gülşad Baxşıyevanı görürsünüzsə, uşaqlıqdan beləyəm. Ola bilsin, bir az qocalmışam, qabalaşmışam, amma Allah-təalanın yaratdığı həmən Gülşadam.